# Azərbaycanda pambıqçılığın inkişafı dövrün və zamanın tələbidir

**Cənab Prezidentimiz İlham Əliyev 26 yanvar 2016-cı ildə “Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramı”nın icrasının ikinci ilinin yekunlarına həsr olunmuş konfransda demişdir: “Bitkiçilikdə böyük inkişaf var. Keçən il kənd təsərrüfatının inkişafı daha çox bitkiçiliklə bağlı idi. Hesab edirəm ki, biz pambıqçılıqla daha ciddi məşğul olmalıyıq. Çünki bu, həm insanları işə cəlb edir, — pambıq tarlalarında çox insan işləyəcək, maaş alacaqdır, — eyni zamanda, bu, valyuta gətirən məhsuldur. Biz həm xam pambığı satmalıyıq, həm də ki, onu ipliyə, daha sonra tekstilə çevirib ixrac etməliyik. Bu, mütləq olmalıdır. Hesab edirəm ki, pambıq yığanlara verilən pul artırılmalıdır. Mənə verilən məlumatlara görə, indi bir kiloqram pambıq üçün insanlara 42 qəpik ödənilir. Hesab edirəm ki, bu, çox azdır”.**

Pambıq dünyanın 80-ə qədər ölkəsində becərilir. Bu ölkələrdən biri də Azərbaycandır. Azərbaycan Yer kürəsinin pambıqçılıq ölkələrindən biri kimi tarixə düşmüşdür. Respublikanın pambıqçılıq bölgələrində bu bitkinin becərilməsinə aid yüz illərlə böyük təcrübə toplanmış, yüksək əkinçilik mədəniyyəti formalaşmışdır. Arxeoloji qazıntılara əsasən demək olar ki, Azərbaycanda pambıq əkməklə hələ eramızdan əvvəl III-IV əsrlərdə məşğul olmuşlar. Bu gün Azərbaycanın 20-yə qədər (Bərdə, Ağcabədi, Beyləqan, İmişli, Biləsuvar, Salyan, Saatlı, Neftçala, Sabirabad, Yevlax, Goranboy, Tərtər, Ağdam, Ağdaş, Göyçay və s.) rayonunda pambıq əkilib-becərilir.

1913-cü ildə Azərbaycanda 100 min ha-dan çox sahədə pambıq əkilmiş və 65 min ton pambıq məhsulu istehsal edilmişdir. 1925-1926-cı illərdə hər hektardan pambığın məhsuldarlığı 6-7 sentner, cəmi məhsul isə 58-60 min ton idisə, Ulu öndərimizin respublikamıza rəhbərliyi dövründə, hər hektarın orta məhsuldarlığı 21,3-25,3 sentnerə, ümumi məhsul istehsalı isə 450-531 min tona çatdırılmışdır.

1969-cu ildə ümummilli liderimiz Heydər Əliyev hakimiyyətə gəldikdən sonra 1969-cu ilin avqustunda və 1970-ci ilin avqustunda Azərbaycan KP MK-nın plenumlarında əkinçiliyi və heyvandarlığı, birinci növbədə pambıqçılığı inkişaf etdirmək üçün konkret tədbirlər planı işlənib hazırlandı. 1970-ci ildən başlayaraq pambıq istehsalı və dövlətə satış planları artıqlaması ilə yerinə yetirilməyə başladı. 1969-cu ildə 162 min ton pambıq təhvil verildiyi halda, 1976-cı ildə 412 min ton pambıq təhvil verilmişdir. Ulu öndərimiz tərəfindən pambıqçılığın inkişaf etdirilməsi kolxoz və sovxozların iqtisadiyyatının möhkəmlənməsinə, kənd zəhmətkeşlərinin maddi-rifah halının yaxşılaşdırılmasına böyük təsir göstərdi.

1969-cu ildə pambıqçılıqdan 150 milyon manat gəlir götürüldüyü halda, 1976-cı ildə bu rəqəm 350 milyon manat olmuşdur. 1970-1976-cı illərdə kolxoz və sovxozlar pambıqdan 2 milyard manat pul vəsaiti əldə etmişlər. 1981-ci ildə respublikada pambıqçılıq sahəsində ən yüksək nəticə alınmış, 1 milyon tondan artıq məhsul istehsal olunmuşdur. Hektarın məhsuldarlığı 34 sentner, ayrı-ayrı təsərrüfat və briqadalarda isə 50 sentner olmuşdur. 1969-1982-ci illərdə 11 pambıqçılıq briqadiri Sosialist Əməyi Qəhrəmanı kimi yüksək fəxri adlara, onlarla istehsalat təşkilatçıları isə yüksək dövlət mükafatına layiq görülmüşlər.

Azərbaycanda pambıqçılığın tərəqqi dövrü 1969-cu ildən başlayaraq 1988-ci ilədək yüksələn xətlə inkişaf etmişdir. 1988-ci ildən başlayaraq pambığın ilbəil ümumi əkin sahəsi, məhsuldarlıq və ümumi məhsul istehsalı azalmışdır. 2015-ci ildə respublikamızda pambığın əkin sahəsi 18,8 min ha, ümumi məhsul istehsalı isə 35 min ton olmuşdur. Halbuki keçən əsrin 80-ci illərində təkcə Bərdə rayonu ildə 100 min tondan çox xam pambıq məhsulu verirdi.

Ulu öndərimiz Heydər Əliyevin rəhbərliyi dövründə respublikamızda pambıqçılıq çox sürətlə inkişaf etdirilmiş, ölkədə illik pambıq istehsalı bir milyon tona çatdırılmışdır. Ölkə büdcəsinin 22-25 faizini pambıqçılıq təmin edirdi. Ümummilli liderimiz pambıqçılığa böyük üstünlük verirdi. O deyirdi: **“Pambıqçılıq çox faydalı sahədir, bu sahə yaşamalı və inkişaf etdirilməlidir”.** Pambıq aran rayonlarında əhalinin əsas məşğuliyyəti və gəlir mənbəyi idi. Bununla bərabər, kəndlərimizdə geniş abadlaşdırma işləri aparılmış, maddi-texniki baza möhkəmlənmiş, əhalinin maddi rifah halı yüksəlmişdir.

Pambıqçılıqda yaranmış indiki vəziyyət, aqrar islahatlara qədər dövlətin tabeçiliyində olan 20-yə qədər pambıq emalı zavodunun Açıq Səhmdar Cəmiyyətlərə (ASC) və Məhdud Məsuliyyətli Cəmiyyətlərə (MMC) çevrilməsi ilə də əlaqədar olmuşdur.

Respublikamızda pambıqçılığın zəifləməsinə ölkədə olan əyirici, toxucu və yağ-piy müəssisələrinin fəaliyyətinin dayandırılması da təsir etmişdir. Məlum olduğu kimi, XX əsrin 70-80-ci illərində respublikamızda Gəncə, Sumqayıt və Mingəçevir şəhərlərindəki əyiricilik və toxuculuq kombinatlarında ildə orta hesabla 30 min ton pambıq lifi işlədilirdi. Bunlarla yanaşı, keçən 20 il ərzində pambıq əkinlərində yüksək və keyfiyyətli məhsul yetişdirilməsinə aid, qabaqcıl təcrübələrdən, elmi yeniliklərdən lazımınca istifadə olunmamışdır. Yerlərdə kiçik kəndli-fermer təsərrüfatlarında pərakəndə halda əkilən pambıq sahələrinə mütəmadi mütəxəssis məsləhəti və xidməti tələb olunan səviyyədə olmamışdır.



Respublikada fəaliyyət göstərən Elit toxumçuluq təsərrüfatları, birinci, ikinci reproduksiyalı toxumluq xam pambıq istehsalı üçün seçilmiş toxumçuluq təsərrüfatları, bölgələrdə toxumluq xam pambıq emalı üzrə ixtisaslaşdırılmış pambıq zavodları islahatla əlaqədar ləğv edildikdən sonra indiyə kimi pambıq toxumçuluğu işinin qüvvədə olan təlimat əsasında sistemli işləməsi təmin olunmamışdır. Odur ki, bu gün bilavasitə pambıq toxumçuluğu ilə məşğul olan təsərrüfatlar yaradılmalıdır.

Məlumdur ki, pambıqdan alınan məhsullardan xalq təsərrüfatının bir çox sahələrində geniş istifadə olunması, pambıq məhsullarından yüzlərlə müxtəlif məmulatlar alınması, pambıq lifinin toxuculuq sənayesi üçün əvəzsiz xammal olması, çiyidinin qiymətli yağ və heyvandarlıqda qüvvəli yem kimi istifadəsinə görə pambıq strateji əhəmiyyətli texniki bitki sayılır. Pambıqçılığın inkişaf etdirilməsi heyvandarlığın inkişafı deməkdir. Pambıq ət, süd, yağ, ordu, paltar və s. deməkdir. Bu gün rayonlarda tonlarla ərzaq buğdasını heyvanlara yem kimi verirlər. Bu gün dünya bazarında pambıq lifinə olan tələbatın daim artmasını da qeyd etmək kifayətdir. Dünya bazarında buğda və neftlə müqayisədə pambığın satınalma qiymətinin yüksək olması buna əyani sübutdur.

Azərbaycanda pambıqçılığın bərpa olunması, pambıq əkinlərinin genişləndirilməsi, istehsalının artırılması, nəinki iqtisadi cəhətcə əhəmiyyətli, eyni zamanda işsizliyin azaldılması istiqamətində də əsaslı dönüş olardı. Pambıqçılıq bölgələrində yerləşən 20-yə qədər rayonun və onun kəndlərinin əhalisinin stabil məşğuliyyəti formalaşardı. Yaxın bir neçə il ərzində pambıq əkinləri artırılaraq 100-150 min hektara çatdırılarsa, pambığın becərilməsində 100-150 mindən çox, məhsul yığımında 150-200 min, tədarük və emal müəssisələrində isə minlərlə işçi qüvvəsi daimi işlə təmin olunar.

Respublikamızda pambıqçılığın inkişafına daimi qayğı göstərən ümummilli liderimiz Heydər Əliyev 25 noyabr 1977-ci ildə Azərbaycan Elmi-Tədqiqat Pambıqçılıq İnstitutunun 50 illik yubileyində “Qırmızı Əmək Bayrağı” Ordenini təqdim edərkən tarixi çıxışında demişdir: “Pambıqçılıq sahəsində aparılan tədqiqatlar məhsulun azı 80-90%-ni sentyabr ayında verən yüksək məhsuldar və tezyetişən sortlar yaradılmasına yönəldilməlidir. Respublikanın pambıq tarlaları seleksiya və aqrotexnika, aqrokimya və fitopotologiya, iqtisad və mexanikləşdirmə, irriqasiya və meşə meliorasiyası alimlərindən səmərəli tədqiqatlar gözləyir. Torpağın münbitliyini yüksəltməkdə birinci söz onlarındır, münbitliyin açarı elmin əlindədir. Elmi surətdə əsaslandırılmış növbəli pambıq-yonca əkininin işlənib hazırlanmasını və tətbiq olunmasını təmin etmək lazımdır. Bu, Azərbaycan şəraitində pambığın məhsuldarlığını 30-40 faiz yüksəltməyə imkan verər”.

Bu sözləri ümummilli liderimiz sanki bu gün üçün demişdir, bu isə dahi şəxsiyyətin uzaqgörənliyi və aqrar sahəyə göstərdiyi diqqət idi.

Pambıq istehsalının sabitləşməsi istiqamətində əlverişli idarəetmə və müvafiq təşkilati məsələlərin prioritet istiqamət müstəvisinə çatdırılması dövlət səviyyəsində nizamlanmalıdır. Ölkədə pambıqçılığın klasterlər əsasında inkişaf strukturunun qurulması öz həllini tapmalıdır. Yəni pambıqdan alınan məhsullara ilk növbədə ölkəmizdə tələbatın artması üçün bu sahə üzrə müştərək sənaye sahələrinin — emal, əyiricilik, toxuculuq və tikiş müəssisələrinin yaradılması həyata keçirilməlidir. Bir sözlə, pambıq respublikamızda son məhsula qədər emal olunmalıdır. Biz xaricə xammal deyil, hazır məhsul satmalıyıq. Bunları etməyə gündən-günə inkişaf edən dövlətimizin hər cür imkanları vardır.

Son 20 ildə respublikamızda yüksək potensiallı, əvvəlki sələflərinə nisbətən əlverişsiz xarici şərait amillərinə daha davamlı, tez yetişən (vegetasiya müddəti 120-130 gün) yeni sortlar yaradılmışdır. Məhsuldarlıq potensialı hektardan 50-55 sentner olan 8 yeni pambıq sortu (AzNİXİ-195, Gəncə-2, Gəncə-8, Gəncə-78, Gəncə-80, Gəncə-103, Gəncə-110, Gəncə-114) rayonlaşdırılmış və sortların ilkin toxumçuluq işləri qurulmuşdur. Rayonlaşma ərəfəsində bu sortların Mil, Muğan və Mərkəzi aran rayonlarının fermer təsərrüfatlarındakı sınaq əkinlərindən hektardan 45-55 sentner məhsul götürülmüşdür. Hazırda pambıqçılıq bölgələrində bu sortlardan normal aqrotexniki şəraitdə hektardan 35-40 sentner məhsul yığılır.

İnstitutun seleksiyaçıları ortalifli pambıq sortları ilə yanaşı, respublikamızın iqlim şəraitinə uyğun tezyetişən zəriflifli pambıq sortları (Gos.barbadense L.) yaradılması istiqamətində məqsədyönlü axtarışlar apararaq ortalifli tezyetişən aborigen sortlarla eyni yetişkənliyə malik zəriflifli pambıq sortları yaratmışlar. Hazırda 3 zəriflifli pambıq sortu (Gəncə-46, Gəncə-120 və Gəncə-125) Dövlət sortsınaq komissiyasında yoxlanılır.

İstehsalat şəraiti kimi kiçik torpaq sahəli kəndli-fermer təsərrüfatlarında suya, yanacağa qənaət etməklə yüksək pambıq məhsulu yetişdirilməsinə aid mütərəqqi texnologiyalar, torpaqların münbitliyinin qorunub saxlanması üçün qısa rotasiyalı (3 tarlalı) növbəli əkin sxemi işlənib hazırlanmışdır. Pambıq bitkisi üçün istər növbəli əkinlərdə, istərsə də aralıq əkin kimi əlverişli sələf bitkiləri seçilməsinə aid, pambıq əkinlərində mineral gübrələrdən istifadə etmədən bioloji kənd təsərrüfatı istiqamətində tədqiqatlar aparılır.

Azərbaycanda pambıqçılığın inkişafı ilə bağlı aşağıdakı təkliflərin yerinə yetirilməsi məqsədəuyğundur:

- Pambıqçılığa dövlət səviyyəsində dəstək, xüsusi subsidiyalar və güzəştli kreditlər verilməlidir;
- xam pambığın satınalma qiymətləri artırılmalı, sahə klasterlər əsasında inkişaf etdirilməlidir (əkin, yığım, emal, son məhsul, satış);
- Pambıq istehsalçılarının kooperasiyası yaradılmalı, torpaqların meliorativ vəziyyətini yaxşılaşdırmaq üçün irriqasiya sistemləri yenidən qurulmalıdır.

Torpaqların münbitliyini və məhsuldarlığını artırmaq üçün pambıq-yonca-taxıl növbəli əkin sisteminə keçilməli, aqrokimyəvi xidmətlərdən geniş istifadə edilməlidir.

Bu gün pambıq zavodları özəldir. Buna alternativ olaraq dövlət tərəfindən pambıq emalı zavodları və pilot pambıqçılıq təsərrüfatları yaradılmalı; “Aqrolizinq” yolu ilə pambıqçılığa dair müasir texnikalar respublikamıza gətirilməlidir.

Pambıqçılığın inkişafına dair Dövlət Proqramı qəbul edilməlidir.

Azərbaycanda pambıqçılığın inkişaf etdirilməsinə, aid Dövlət Proqramı mövcud problemlərin həllində, xüsusilə kənd əhalisinin daimi işlə təmin olunmasında, heyvandarlığın yem bazasının möhkəmləndirilməsində əhəmiyyətli nəticələr verə bilər.

**Həsənəli ASLANOV,**
**Bitki Mühafizə və Texniki Bitkilər Elmi-Tədqiqat İnstitutunun direktor müavini, aqrar elmləri doktoru, professor.**